“Son illər ölkəmizdə keçirilən islahatlar geniş vüsət alıb. Dövlətimizin başçısı tərəfindən müəyyənləşdirilmiş islahatlar cəmiyyətdə böyük rəğbətlə qarşılanır və dəstəklənir. Çünki islahatların əsas məqsədi ölkəmizin beynəlxalq aləmdə mövqeyinin getdikcə möhkəmləndirilməsinə, eyni zamanda, əhalinin həyat tərzinin daha da yaxşılaşdırılmasına istiqamətləndirilib. Bu islahatlar bir çox sahələri əhatə ediir. Yeni Azərbaycan Partiyası Siyasi Şurasının Milli Məclisin buraxılması təşəbbüsü də bu islahatların məntiqi davamıdır”. Bu fikirləri Milli Məclisin deputatı Rüstəm Xəlilov bildirdi.



# Parlamentin yenilənməsi islahatların məntiqi davamıdır

Deputat qeyd etdi ki, 2019-cu ildə dövlətimizin başçısının sərəncamları ilə böyük sosial addımlar atılıb. Bu islahatlar nəticəsində əhalinin bütün təbəqələrinin – xüsusilə, aztəminatlı və sağlamlıq imkanları məhdud insanların rifahı xeyli yaxşılaşdırılıb: “Dövlətimizin başçısı öz çıxışlarında bildirmişdi ki, islahatlar bundan sonra da davam etdiriləcək. Azərbaycanda hakimiyyətin hər iki qolunda islahatlar aparıldığından qanunverici orqanın da yenilənməsi zərurəti yaranmışdı. Bu baxımdan da Milli Məclisin buraxılması və yenilənməsi vacib idi. Yeni Azərbaycan Partiyası Siyasi Şurasının Milli Məclisin buraxılması haqqındakı təşəbbüsü alqışa layiqdir. Bu partiyadan olan deputatlar da yekdil mövqe nümayiş etdirərək, parlamentin yenilənməsini Prezident İlham Əliyevin apardığı islahatlara dəstək olacağı qənaətinə gəldilər”.

Deputat bildirdi ki, Milli Məclisin buraxılması ölkədə həyata keçirilən islahatların tərkib hissəsidir. Respublikamızda həyata keçirilən yeniləşmə, idarəetmədəki yeni sistem Milli Məclisdə də özünü göstərməldir: “Təbii ki, islahatların aparılması, gənc kadrlara meydan verilməsi dövrün, inkişafın tələbidir. Qarşıya qoyulan hədəflərə bilikli, təcrübəli və yeni təfəkkürə malik, müasir beynəlxalq trendlərin tətbiqini bacaran kadrlarla nail olmaq mümkündür. Son vaxtlar dövlətimizin başçısının bu istiqamətdə atdığı addımlar, gənc kadrları məsul vəzifələrə təyin etməsi, onlara böyük etimad göstərməsi artıq öz müsbət təsirini göstərməkdədir. Məhz yeni yanaşmaların tətbiqi, bir sıra hallarda mövcud olan məmur özbaşınalıqlarının aradan qaldırılması iqtisadi islahatların təkanverici qüvvəsi olmalıdır”.

Dövlətimizin başçısı islahatların davamlı olacağını diqqətə çatdıraraq. bu istiqamətdə çox güclü siyasi iradənin ortaya qoyulduğunu, islahatların şəxsi maraqlara qurban verilməyəcəyini və görülən işlərə maneə yaradan insanlarla yolların ayrılacağını vurğuladı.

R.Xəlilov dövlətimizin başçısının kadr islahatlarını, xüsusilə, bu il noyabrın 30-da imzaladığı sərəncamları diqqətə çatdıraraq dedi ki, bütün bunlar idarəetmədə yeniləşmənin bariz nümunəsidir: “Uğurlarımız, ölkəmizin beynəlxalq aləmdə mövqeyinin getdikcə möhkəmləndirilməsi göz önündədir. Azərbaycanın dünya birliyinə inteqrasiyasını sürətləndirmək, mövqeyimizi daha da möhkəmləndirmək üçün islahatlar bütün sahələri əhatə etməlidir. Dövlətimizin başçısının qeyd etdiyi kimi, biz daha qüdrətli, daha rifahlı bir Azərbaycan qurmalıyıq. Məhz bu baxımdan parlamentin yenilənməsi də vacibdir”.

*Söhbəti qələmə aldı:*
*Əliqismət BƏDƏLOV, “Xalq qəzeti”*

Xalq qəzeti.- 2019.- 4 dekabr. S. 3.